# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin polis əməkdaşının maddi və sosial təminatları ilə bağlı qaydaların təsdiq edilməsi haqqında” 2021-ci il 31 mart tarixli 72 nömrəli Qərarında dəyişiklik edilməsi, “Naxçıvan Muxtar Respublikasının şəhər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2020-ci il 22 iyul tarixli 132 nömrəli, “Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığorta üzrə sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 23 oktyabr tarixli 184 nömrəli, “Naxçıvan Muxtar Respublikasında “Sığortaolunanların fərdi uçotunun aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” 2020-ci il 30 oktyabr tarixli 187 nömrəli, “Naxçıvan Muxtar Respublikasında ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar”ın təsdiq edilməsi haqqında” 2020-ci il 26 noyabr tarixli 200 nömrəli və “Naxçıvan Muxtar Respublikasında uyğunluq sertifikatının forması, uyğunluq nişanından istifadə və verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” 2021-ci il 7 aprel tarixli 89 nömrəli qərarlarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin IV hissəsini və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin polis əməkdaşının maddi və sosial təminatları ilə bağlı qaydaların təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 31 mart tarixli 72 nömrəli Qərarının 1-9-cu hissələri ləğv edilsin.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aşağıdakı qərarları ləğv edilsin:

2.1. “Naxçıvan Muxtar Respublikasının şəhər və digər yaşayış məntəqələri ərazisinin sanitariya qaydalarına, gigiyena və ekoloji normativlərə uyğun olaraq təmizlənməsi, məişət tullantılarının müvəqqəti saxlanılması, müntəzəm daşınması və zərərsizləşdirilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 22 iyul tarixli 132 nömrəli Qərarı;

2.2. “Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığorta üzrə sığorta haqqının hesablanmasına və ödənilməsinə nəzarət Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 oktyabr tarixli 184 nömrəli Qərarı;

2.3. “Naxçıvan Muxtar Respublikasında “Sığortaolunanların fərdi uçotunun aparılması Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 oktyabr tarixli 187 nömrəli Qərarı;

2.4. “Naxçıvan Muxtar Respublikasında ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl Qaydalar”ın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 26 noyabr tarixli 200 nömrəli Qərarı;

2.5. “Naxçıvan Muxtar Respublikasında uyğunluq sertifikatının forması, uyğunluq nişanından istifadə və verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 aprel tarixli 89 nömrəli Qərarı.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Ceyhun Cəlilov**
**Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan şəhəri, “ 23 ” “ may ” 2025-ci il

№ 34